Ovqat

# Ruhumuza qaytardın ruhumun şəhərini, Azərbaycan əsgəri!..



*Son illərdə ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatların, genişmiqyaslı təlimlərin nəticəsi olaraq şəxsi heyəti həm yüksək döyüş qabiliyyətinə, həm də yüksək mənəvi-psixoloji hazırlığa malik olan ordumuzda bu il sentyabrın 27-nə kimi əsgərlərimiz mahiyyəti torpaqlarımızın işğaldan azad edilməsi olan döyüş növbətçiliyini döyüş əzmiylə, döyüş əzmini tamamlayan qələbə ruhuyla aparırdı. Bu niyyət Vətən müharibəsində gerçəkləşdi...*

Müharibədə (Vətən müharibəsində!) hər döyüş əhəmiyyətli olduğu kimi, hər qələbə də dəyərlidi. Azərbaycan Ordusu 44 gün belə döyüşdü, Qələbəni belə qazandı.

Hamımız Suqovuşanın işğaldan azad edilməsinə də sevinmişdik, Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının ermənisizləşdirilməsinə də, Xudafərin körpüsünün sıxıntılardan xilas olunmasına da. O yerlərdə Azərbaycan əsgərinin qalibiyyət bayrağının əzəmətlə dalğalanmasını indi xəyalən görürük, azərbaycançılıq o yerləri də kənd-kənd, ev-ev dikəldəcək...

Ruhumuzun şəhəri olan Şuşa işğaldan azad edildi. Bilmirəm, güzarım düşəndə ora Gəncə qapısındanmı girəcəm, İrəvan qapısındanmı, Ağoğlan qapısındanmı. O qapıların üçü də ruhumuzun qapısıdı axı...

Vətən müharibəsinin ilk günlərində əsgər Əlövsət Məmmədov demişdi:

- Yeniyetməliyimdə Şuşa haqqında mən də oxumuşdum. Neçə-neçə yadellinin bu şəhəri ala bilmədiyini mən də eşitmişdim. Necə bir yerdə salındığı haqqında əlavə məlumatlar da almışdım. Görmədən hüsnünə mən də heyran olmuşdum. Döyüşlər başlayanda işğaldan sonra ora gedəcəyimə qərar vermişdim. İstəyimi əsgər yoldaşlarıma da bildirmişdim. Hamısı fikrimi bəyənmişdi.

Əsgərin dediklərindən duyğulanmışdıq. Belə gözəl bir niyyət bizim də düşüncələrimizi tərpətmişdi, zabit Elcan İsmayılovun da:

- Müqəddəs niyyətdi. Hamımız sənin kimi düşünürük, hamımızın belə niyyəti var. Ancaq əvvəlcə onu azad etməliyik. O niyyət Şuşanı, eləcə də işğal olunmuş digər ərazilərimizi də ermənisizləşdirəndən sonranın niyyətidi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vasif Sabitzadənin dalğınlığı diqqətimi çəkdi. "Baxışını bürüyən qəhər nə qəhərdi, əsgər?", - soruşdum. Bir anlığa duruxub dedi:

- Qonşumuz Kərim baba şuşalıdı. Atam deyir ki, o da digər şuşalılar kimi, 28 ildi Şuşanı xəyalında yaşadır. Mən hərbi xidmətə gələndə ümidlə demişdi ki, ordumuz məni bu nisgildən qurtaracaq. Vətən müharibəsində mən də iştirak edirəm. İşğalı sona çatdırmaq üçün döyüşürdük. Minlərlə Kərim babaları niyyətinə çatdırmaq üçün döyüşürdük...

1991-ci ilin yanvarın sonunda Xocalıya ezam edilmişdim. Oradan Şuşaya da getmişdik. Yuxarı Gövhər ağa məscidindən gələn azan səsini ruhumun meracı bilmişdim. O gecə göylər mənə nə qədər yaxınıydı, İlahi, nə qədər! Dan yeri sökülər-sökülməz Cıdır düzünə gəlmişdik. Oradan Daşaltıya kinimi, qəzəbimi də bükdüyüm daşlar atmışdım. O vaxtdan bəri hər yadıma düşəndə mənə elə gəlmişdi ki, Şuşa işğaldan azad edilənə kimi Daşaltının başına daşlar atılacaq. Vətən müharibəsində bizim xəyalən atdığımız daşları Azərbaycan əsgəri güllələrə çevirib atdı, Daşaltı mənən daş altında qaldı.

Şuşa işğaldan azad edildi. İllər sonrası Qoşa qala qapısında ayaq saxlayıb üzüm gələn, ərkim çatan şuşalıların birindən bircə ağız oxuma istəyəcəm, ruhumla dinləyəcəyim oxumaya ömrümün bundan sonrasının şükranlıq duası deyəcəm. Və Daşaltı tərəfə baxacam. Sübh namazının azan səsini Daşaltı əməliyyatında şəhid olanlarımızın ruhuna dua biləcəm...

Azərbaycan əsgərinin qələbə ruhunun təntənəsi kimi indi Şuşada da qalibiyyət bayrağımız dalğalanır. Yerlər də, göylər də bu əzəmətin heyranıdı. 28 ildi göy üzü bu biçim təmas görməyib. Azərbaycan əsgəri göy üzünün könül xoşluğunu 28 ildən sonra özünə qaytardı. Hamı noyabrın 8-ni - Şuşanın işğaldan azad edildiyi günü də, noyabrın 10-nu - Vətən müharibəsinin başa çatdığı günü də Azərbaycan əsgərinin qüdrəti bildi. Bu qüdrətin dünyəvi qüdrət olduğunu çox yerdə çoxları etiraf edəcək. Azərbaycanı sevənlər səmimiyyətlə, digərləri məcburən, haqqın, ədalətin mənəvi tələbi kimi deyəcək ki, Azərbaycan Ordusu qadir ordudu....

Pənahəli xanın, Xan qızı Natəvanın, Cabbar Qaryağdıoğlunun, Mir Möhsün Nəvvabın, Üzeyir bəyin, Bülbülün, bütün qalalıların ruhuna gözaydınlığı günü oldu 8 noyabr. 28 ildi mənəvi sıxıntıdaydı Qala-şəhər. Məscidlərindən azan səsi gəlmirdi, Azərbaycan əsgəri Şuşada Gövhər ağa məscidində 28 ilin toz-tomurunu təmizlədi, həmin gün burada niyyət namazı qılındı.

Xarıbülbülün ləçəklərinə xal düşmüşdü, İsa bulağının səsi batmışdı, Cıdır düzünün əlləri üyüşmüşdü, Qaladan Topxanaya enən yollar dolaşıq düşmüşdü, doğma səsə, doğma nəfəsə tamarzıydı, 28 iliydi Şuşanın dağlarının dumanı çəkilmirdi; 28 iliydi gözləri yol çəkirdi Şuşamızın...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti vətəndaşlara, dünya azərbaycanlılarına gözaydınlığı oldu: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!"

Şuşanın işğaldan azad edilməsi sevincini Vətən müharibəsinin qurtarmasına əminlik kimi yaşadıq.

Döyüşlərdə imkan olduqca kəlmələşəndə döyüşə sevgisini, yüksək döyüş əzmini, qələbə ruhunu könlümə köçürdüyüm döyüşçülər deyirdilər ki, biz Vətən müharibəsini Böyük Qələbəylə tamamlayacağıq. Bir gündə bir mövqedən düşmənin üç tankını, artilleriya qurğusunu sıradan çıxardan, neçə-neçə canlı qüvvəsini məhv edən döyüşçülərin qətiyyətində gördüm atılacaq sonuncu gülləni, döyüşçülərin dediklərinin inam çalarında eşitdim Vətən müharibəsinin sonuncu gülləsinin səsini. Əsgər Ələsgər Əliyev demişdi: "Babam şuşalıdı. Atam orada doğulsa da, Bakıda böyüyüb. İldə iki-üç dəfə Şuşaya gedirmiş. 1992-ci ilə kimi. Hərbi xidmətə gələndə atama "Səni Şuşana qaytarmaq üçün Ali Baş Komandanın döyüş əmriylə döyüşəcəyik, ata. Uşaqlığının, yeniyetməliyinin şəhərini bu yaşında da doyunca dolaşacaqsan. Cıdır düzündən dərdiyin çiçəklərin ətrini yadırğamayıbsan, yəqin...", - demişdim. Vətən müharibəsi başlayıb. Döyüşürük. Əsgər olaraq atama vəfa borcumu yerinə yetirəcəm", - döyüşçünün inamı inamımın işığına dönmüşdü. Səhərisi gün düşmən həmin mövqedən xeyli uzaqlaşdırılıb. Bu gün əsgər Ələsgər Əliyevin sevincinin kükrədiyini gümanlayıram. Həm də güman edirəm ki, bu sevinc zamana bac verəsi sevinc olmayıb; həm döyüşçü kimi qürurlanıram, həm də oğul kimi.

270 yaşlı Qala, Pənahabad zaman-zaman sınaqlara ünvan da olub. Üç dəfə yandırılıb da. Yaşayıb. Mərdliklə, mərdanə yaşayıb. 1992-ci ilin 8 mayında işğal edilmişdi Qala-şəhər. Ruhumuzun sıxıntısının yaşı həmin günlə yaşıd idi. Bitdi o sıxıntılar. Ruhumuz o sıxıntılardan qurtardı. Azərbaycan əsgəri o sıxıntılarını tarixi qələbə qazanmaqla bitirdi. Bu qələbə Vətən müharibəsində tarixi mərhələnin başlanğıcı oldu - bir gün sonra düşmən məğlub olduğunu etiraf etdi. Ötən il "Açıq qapı" günündə rastlaşdığım şuşalı əsgər atası Səlim kişi sözarası demişdi ki, Şuşa işğaldan azad edilənə kimi Əzrayıla can verməräm. Onu da demişdi ki, Şuşa ruhumun beşiyidi. İndi Səlim kişinin sevincinin boyu ömrünün boyundan çox böyükdü, lap çox...

2016-cı ilin Aprel döyüşlərindən bir gün sonra Lələtəpədəydim. Zabitlərlə, əsgərlərlə kəlmələşmişdik, Lələtəpədə dalğalanan bayrağımızı bağrıma basmışdım, diz çöküb öpmüşdüm bayrağımızı. Lələtəpənin sağında-solunda yollar görmüşdüm, "Bu yollar hara gedir?" - soruşmuşdum. "Şuşaya", - demişdilər. O vaxtdan noyabrın 8-nə kimi Şuşaya aparacaq yollar yuxularımda gecələyirdi. "Səyyar xəyalımız" o yolların ağına düşmüşdü; Azərbaycan əsgəri milyonların səyyar xəyalını gerçəkləşdirdi. Xəyalı gerçəkləşənlər işğalın son gününün sevincini də könül xoşluğuyla yaşadı.

Qoşa qala qapısının yanında Süleymanın kəklikotulu çayından bircə qurtum içsəm, bütün ağrı-acılar canımdan çıxar. Behbud kişinin, İlqarın, Vasifin, Elçinin, ... timsalında bütün şuşalıların qəhəri qəhərim idi, nisgili nisgilim. Zabit olmuş mərhum Seyidağa Mövsümlü də - bir-birimizə ölüm qardaşı deyirdik - belə deyirdi...

Şuşanın işğaldan azad edilməsiylə Xarıbülbül də azad edildi. Deyilmişlərin təkrarı kimi səslənməsin, bir az qəhər, bir az kədər, bir az nisgil gülü deyərdim Xarıbülbülə. 28 il çəkinə-çəkinə boy göstərib, ləçəklərini yad nəzərlərdən gizləyə-gizləyə boylanıb göy üzünə. Nə bir kəlmə doğma səs eşidib, nə doğma nəfəs duyub, nə də dil açıb bir kəlmə söz deyib. 28 ildə çəkdiyi iztirabları diz üstə çöküb ətrini acgözlüklə ciyərlərinə çəkənlərə birər-birər danışacaq. Beş-üç kəlməsini mən də eşitməyə niyyətliyəm...

Vətən müharibəsi başlayandan beş-altı gün sonra döyüş bölgəsində mövqe qələbəsi qazanmış əsgərlərlə kəlmələşəndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi bir fikri də xatırlamışdıq: Vətən müharibəsinin qələbə ilə başa çatacağının dönməz zəmanəti kimi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Torpaqlarımızı geri aldıq! Ərazi bütövlüyümüzü bərpa etdik! Qarabağ bizimdir!

Əks-hücum əməliyyatından əvvəl ön xətdə, səngərlərdə əsgərlərlə kəlmələşəndə Azərbaycan Ordusunun döyüş və mənəvi-psixoloji hazırlığının, döyüş əzminin, döyüşə sevgisinin, əsgərlərin qələbə ruhunun zəmanəti ilə qətiyyətlə deyirdik ki, yaxın vaxtlarda Qələbənin sevincini yaşayacağıq. Diləyimiz gerçəkləşdi. İndi du boyda sevinci qədərsiz könül xoşluğuyla yaşayırıq. Bu sevinci məmləkətə, "Azərbaycan!" deyənlərə, "Can Azərbaycan!" deyənlərə Azərbaycan əsgəri yaşatdı. "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı, Azərbaycan Ordusu. Nə yaralını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar". Rus mediasında dərc edilən bu fikirlər Azərbaycanı sevənlərə qürur, qəlbipaxırlara bir az həsəd, bir az ehtiyatlılıq, bir az da səksəkə yaşadır, şübhəsiz...

Rus mediasında deyildiyi kimi, nəfəs dərmədən Şuşaya çıxan döyüşçülərimiz son yüz illərin ən möhtəşəm qələbəsini qazandı. 8 yaşlı nəvəm ermənilərin təslim sənədini eşidər-eşitməz boynuma sarıldı, "Bəs Xocalı?" - soruşdu. Bu sorğu onun Xocalı faciəsinə bələdliyinin sualıydı, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istəyinin sualıydı və anasının əlindən yapışıb həyətə dartışdırdı. Getdilər. Boyu bərabərində olan bayrağımızı həyətdə tay-tuşlarıyla o qədər sevgilərlə, şuşalı sevinc içində o qədər hərarətlə dalğalandırdı ki!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi fikirləri ictimaiyyət 28 illik nisgilə sərkərdə təsəllisi bildi: "...Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq". Bu inam tam qələbə qazanılacağına əminlik kimi səslənmişdi. Vətən müharibəsi Qələbə ilə başa çatdı...

Şuşa - şüşə səsləşməsi mənə gözəl könül xoşluğu verir...

Sərin payız səhərində İsa bulağının da, Səkili bulağın da, Şəmilin bulağının da, Qarqar çayının da eyni açılıb; işğaldan qurtarmış şəhərin gileylərini də deyirlər, həsrətinin tərcümanı olan şikəstələrini də....

Sərin payız səhərində milyonlar Azərbaycan əsgərinə deyir ki, ruhumuza qaytardın ruhumun şəhərini, Azərbaycan əsgəri!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**